**UOT 76.02**

**SAMİR SADIQOV ***

# HEYKƏLTƏRAŞ FUAD ƏBDÜRRƏHMANOVUN NİZAMİ GƏNCƏVİ HEYKƏLİ

*Görkəmli Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin bədii irsi və poetik obrazı artıq neçə əsrdir ki, bütün bəşəriyyətin diqqət mərkəzindədir. Gəncəli şairimizin yubileyləri təkcə Azərbaycanda deyil, dünya miqyasında hər zaman böyük təntənə ilə qeyd edilmişdir. II dünya savaşı illərində onun yubileyinin qeyd edilməsi buna bariz nümunədir. Bu il də Azərbaycanda "Nizami Gəncəvi ili" elan edilmişdir. Prezident İlham Əliyevin 2021-ci ili Azərbaycanda "Nizami Gəncəvi ili" elan edilməsi barədə Sərəncamı şairə, onun yaradıcılığına, poetik obrazına yenidən müraciəti şərtləndirir və aktuallaşdırır. Bu baxımdan məqalədə Nizami Gəncəviyə ucaldılmış heykəllərin monumental heykəltəraşlıq baxımından tədqiqi çox aktual və zamanında görülmüş iş sayıla bilər.*

**Açar sözlər:** *Nizami Gəncəvi, heykəl, ədəbi, monumental, dəzgah, obraz, plastika.*

Heykəltəraşlığımızın nailiyyətlərindən bəhs edərkən ilk növbədə monumental heykəltəraşlıq nümunələrini nəzərdən keçirmək lazımdır. Çünki Bakıda və digər şəhərlərimizdə ucaldılan möhtəşəm abidələr heykəltəraşlığımızın yaradıcılıq məharətinin xeyli yüksəldiyini göstərir. Heykəltəraşlığımızın müharibədən sonrakı inkişafı barədə danışarkən ilk növbədə dahi şairimiz Nizami Gəncəvinin yubiley tədbirləri çərçivəsində Gəncədə və Bakıda ucaldılan abidələrini qeyd etmək lazımdır. Həm Gəncədəki, həm də Bakıdakı abidənin müəllifi olan Fuad Əbdürrəhmanov Nizami obrazı üzərində hələ müharibədən əvvəl işləməyə başlamışdır. 1939-cu ildə Azərbaycan hökuməti Nizaminin Bakıda qoyulacaq abidəsinin layihəsini hazırlamaq üçün müsabiqə elan etmişdir. Abidə memarlar M.Hüseynov və V.İvanovun layihəsi əsasında yenidən qurulmuş Nizami muzeyinin qarşısındakı meydanda ucaldılmalı idi. Müsabiqə şərtlərində abidənin harada qoyulacağı göstərilmiş, onun seçilən yerlə ideya və kompozisiya əlaqəsi nəzərə alınmışdır. Heykəltəraşlar və memarlar qarşısında abidə ilə ansamblın əsas binası olan Nizami adına muzey və layihələşdirilmiş yaşıl bağça arasında qarşılıqlı əlaqə yaratmaq problemi dururdu. Müsabiqə layihəsinin bu cür bədii əsaslandırılması abidə üzərində daha dəqiq və düşünülmüş iş aparılmasını tələb edirdi. Açıq müsabiqəyə 60-a yaxın abidə layihəsi təqdim edilmişdir. Layihələrin hər biri nəzər-diqqətdən keçirilməyə layiq əsərlər olmaqla bərabər, bir növ milli heykəltəraşların yaradıcılıq eskizləri idi. Lakin həm jürinin, həm tamaşaçıların, həm də heykəltəraşların və memarların diqqətini F.Əbdürrəhmanovun yaratdığı abidənin layihəsi cəlb etdi. O şair obrazının mülayim, nüfuzedici şərhi ilə digərlərindən seçilirdi. Jüri F.Əbdürrəhmanov, S.Dadaşov və M.Hüseynova abidənin layihəsi üzərində işi davam etdirməyi tapşırdı.

Sonralar Nizaminin doğma şəhəri Gəncə üçün də şairin heykəlini hazırlamaq F.Əbdürrəhmanova həvalə edildi. Bununla əlaqadar olaraq heykəltəraş modelin Bakı üçün nəzərdə tutulan ilk variantı üzərində işi dayandırdı və Gəncədə abidəni yeni səpkidə işləmək fikrinə düşdü. 1945-ci il ərzində Fuad Əbdürrəhmanov abidənin yeni variantı üzərində işini davam etdirdi və 1946-ci ilin əvvəlində tamamladı.

Heykəltəraş Gəncə üçün yaradılan abidəyə yumşaq, intim və lirik səciyyə verməyə çalışmışdır. Abidə şaquli kompozisiyada həll edilmişdir. F.Əbdürrəhmanov Nizami obrazının tarixi həqiqətə mümkün qədər daha çox uyğun olmasına çalışmış, şairin həmvətənləri üçün çox qiymətli surətini yaratmışdır. Əynində əba, əlində kitab olan şairin bütün fiquru bir qədər sərt

və dinamikdir. Nizami obrazı, ilk növbədə, böyük insani keyfiyyətlərə malik olan böyük şairin obrazı kimi təcəssüm etdirilmişdir. Şairin sakit və təmkinli duruşu da abidənin ümumi ideyası ilə həmahəngdir. Aydın və sanballı formalar abidəyə təmkinli və əzəmətli bir görkəm verir. Gəncədə Nizami abidəsinin qoyulması ilə şəhərin ən maraqlı guşələrindən birinin bədii obrazı müəyyənləşmiş oldu. Gəncədəki Nizami abidəsi yalnız gənc F.Əbdürrəhmanovun deyil, həm də bütün Azərbaycan heykəltəraşlığının böyük yaradıcılıq qələbəsidir. Nizami abidəsi öz plastik keyfiyyətləri baxımından ən uğurlu həllidir. Abidə kompozisiya həllinin aydınlığı, bədii quruluşun kamilliyi, nisbətlərin dəqiqliyi, hərəkətlərin ahəngdarlığı ilə seçilir. Abidənin ümumi hündürlüyü 9 metrdir (kürsülük 5 metrdir). Nizami abidəsi onun ətrafında yerləşən bütün memarlıq ansamblının mərkəzidir. Memarlar kürsülüyün abidə ilə uyarlığına ciddi fikir vermişlər. Heykəlin özündə olduğu kimi, onun kürsülüyündə də bir yığcamlıq hakimdir. Çoxbucaqlı prizma şəklində olan kürsülüyün üzləri pilləkənvari geniş bir oturacaqla, o da öz növbəsində ensiz bir oturacaqla bitişir. Kürsülüyün formaları sadə və ciddidir. O, yuxarıya doğru istiqamətlənərək öz enli və ensiz üzləri ilə abidənin şaquli vəziyyətini qüvvətləndirən səkkizüzlü prizma şəklindədir. Sənətşünalıq üzrə elmlər doktoru, professor Cəmilə Novruzova Gəncə şəhərində ucaldılmış Nizami Gəncəvi heykəli haqqında qeyd edir ki, "F.Əbdürrəhmanov Nizami Gəncəvinin abidəsində psixoloji aləmi zəngin olan canlı obraz, parlaq xarakter yaratmışdır. O, heykəltəraşlığın klassik ənənələrinə arxalanaraq, Nizami poeziyası ilə həmahəng olan əzəmətli və təmkinli bir obraz yarada bilmiş, plastik formaları bir-biri ilə ustalıqla əlaqələndirmişlər. Memarlar və heykəltəraşlar heykəli və kürsülüyü ətraf aləmlə üzvi sürətdə əlaqələndirməyə nail olmuşlar" (2, s. 32). Gəncə şəhərində olan Nizami heykəli öz plastik keyfiyyətləri baxımından Azərbaycan heykəltəraşlığında monumental abidə probleminin ən uğurlu həllidir. Bu heykəl kompozisiya həllinin aydınlığı, bədii quruluşun kamilliyi, nisbətlərin dəqiqliyi, hərəkətlərin ahəngdarlığı ilə seçilir. Heykəltəraş bu işinə görə 1948-ci ildə SSRİ Dövlət Mükafatına layiq görülmüşdür. Fuad Əbdürrəhmanov Gəncə şəhərində Nizami Gəncəvinin fiqurunda da əzəmətliliyi, lakin bir qədər lirik ovqat daşıyıcılığı ilə fərqlənir (1, s.3). Müəllif əsərdə məna-məzmun dərinliyi ilə plastik dekorativliyin vəhdətinə nail olmaqla, böyük Nizami dühasının möhtəşəmliyini özündə yaşadan yaddaqalan obraz yaratmağa nail olmuşdur.

1947-ci ildə Bakıda Nizami Gəncəvi abidəsinin özülü qoyuldu və 1949-cu il mayın 1-də abidənin açılışı olur. Heykəltəraş öz yaradıcılıq niyyətini təcəssüm etdirərək abidənin qabaqcadan müsabiqə şərtlərində və tematik tapşırıqda göstərilən yerini nəzərə almışdır. Abidənin düzgün həllində bunun mühüm rolu olmuşdur. Memarlıq mühiti abidənin şaqulu vəziyyətini müəyyən etdi. Abidənin görkəminin və həcminin təcəssümü Nizami Muzeyi ilə abidə arasında yaradılmalı olan ideya və kompozisiya əlaqəsindən irəli gəlirdi. Nizami abidəsi ansamblın əsas binasının mehvəri istiqamətində yerləşdi. Memarlar M.Hüseynovla V.İvanovun layihəsi əsasında meydanın ortasındakı bağça yenidən qurulmuşdur. Memarlar bağçanı Nizami muzeyi istiqamətində pillə-pillə aşağı enən səkilər şəklində həll etmişlər. Bu bağçaya müəyyən dinamiklik, ahəngdarlıq verirsə, sanballı monumental formalarda həll edilmiş Nizami Gəncəvi abidəsi bağçanın ümumi görünüşünə bir sakitlik gətirir. Heykəlin hər tərəfdən görünməsinə şərait yaratmaq üçün memarlar abidənin yerini və yollarını ciddi surətdə düşünüb müəyyən etmişlər. Bağ dörd tərəfdən gediş-gəlişli küçələrlə əhatə olunmuşdur. Bağın yaşıllıq az olan bir hissəsi Nizami muzeyi qarşısında boş sahə əmələ gətirir.

Detalları incə xətlərlə rəsm edilmiş 6 metr hündürlükdə tunc heykəl, qırmızı labratordan yonulub pardaxlanmış 9 metrlik səkkizüzlü kürsülüyün üstündə qoyulmuşdur. Kürsünün aşağı hissəsində oyma naxışlar və tunc lövhələr vurulmuşdur. Lövhələrin birində ithaf sözləri həkk olunmuş, digərlərində isə Nizami əsərlərindən ayrı-ayrı səhnələr zərif relyeflərdə təsvir edilmişdir. Abidənin meydanın ortasında deyil, yuxarıda qoyulması tamaşaçıların diqqətini

Nizami muzeyi ansamblının əsas binasına tərəf istiqamətləndirir. Beləliklə muzeyin baş fasadı qarşısında lazımi sahə yaradır. Öz hündürlüyü və yerləşdiyi ərazinin quruluşu sayəsində abidə bütün nöqtələrdən səma fonunda aydın görünür. Memarlar Nizami dövrü abidələrini yaxşı öyrənmiş, kürsülükdə Azərbaycan memarlıq ünsürlərindən bacarıqla istifadə etmişlər. Abidə bütovlükdə yuxarıya doğru istiqamətlənmişdir. Kürsülüyün getdikcə ensizləşməsi və heykəlin özü abidənin şaquli vəziyyətini daha da qüvvətləndirir. Duruşun təcəssümü, təmkinli qaməti, şairin daxili aləminin dinamikası abidənin bu ideyasına uyğundur (3, s.24). Heykəltəraş Nizami obrazında ən əvvəl xalqın şair haqqında təsəvvürünü, ideyasını təcəssüm etdirmək istəmişdir.

Abidənin həm yaxından, həm də uzaqdan ən cazibədar ən xoşagəlimli görünən hissəsi şairin sanki canlı olan, böyük və ülvi fikirlər ifadə edən çöhrəsidir. Nizaminin mənalı gözləri sanki gələcəyə baxır. Heykəltəraş şairin enli əbasını böyük sənətkarlıqla mənalandırmışdır. Əbanın qatları lakonik, eyni zamanda da həyatidir. Geyimin, o cümlədən də çalmanın sadəliyi, kompozisiyanın lakonikliyi abidənin ümümi xarakteri ilə gözəl ahəngdarlıq təşkil edir. Nizaminin simasından, fiqurundan, qədd-qamətindən müdriklik və böyüklük oxunur. F.Əbdürrəhmanov klassik heykəltəraşlıq ənənələrinə əsaslanaraq, bütün heykəltəraşlıq formalarının sanballı və ahəngdar çıxmasına nail ola bilmişdir. Nizaminin duruşu son dərəcə təmkinli və sakitdir. Fiqurun başının sola və sağa deyil, demək olar ki, düz irəliyə doğru istiqamətləndirilməsi şairin duruşunun sahitliyini aydın şəkildə nəzərə çarpdırır. Yalnız qollar heykələ müəyyən bir dinamika verir. Şair bir qolunu dirsəkdən büküb əbanın ətəyini əlinə almışdır. O biri əlində isə şeir yazılmış bükülü bir kağız tutmuşdur. Abidənin həm Bakı, hən də Gəncə variantında əllərin vəziyyəti böyük bir sənətkarlıqla tapılmışdır.

Gəncədə qoyulmuş abidə kimi, Bakıda qoyulmuş abidə üçün də Azərbaycanın qədim memarlıq abidə tipi əsas götürülmüşdür (4, s.123). Lakin Gəncədə qoyulmuş abidənin kürsülüyünün sadə, harmonik xətləri əvəzinə Bakı variantının kürsülüyünə zəngin dekorativ ünsürlər, stilaktiklər və tunc ornamentlər daxil edilmiş, burada Azərbaycan memarlıq abidələrinin dekor motivlərindən çox yerində istifadə edilmişdir. Kürsülüyün əsas tunc lövhəsində şairin adı, təvəllüd və ölüm tarixi göstərilmişdir. Kürsülüyün qalan yeddi üzü isə rəssam Q.Xalıqovun eskizləri əsasında heykəltəraş A.Xryunovun yaratdığı barelyeflərlə bəzədilmişdir. Barelyeflərdə şairin əsərlərindən alınmış ayrı-ayrı səhnələr dayaq relyeflərdə təsvir edilmişdir. Medal texnikası üslubunda işlənmiş barelyeflər heykəlin məzmununu xeyli zənginləşdirmişdir. Memarlarla heykəltəraşların birgə zəhməti olan Nizami abidəsi meydanın bütün ansamblını bütöv və bitkin bir şəklə salmışdır. Nizami abidəsi şəhər mühitində ən dəyərli əsərlərdən biridir.

F.Əbdürrəhmanovun Nizami obrazı üzərində apardığı işin uğuru onun gələcək axtarışları üçün təkanverici amil oldu və o, yaradıcılığının sonrakı mərhələlərində bir çox Şərq filosoflarına, eləcə də müasirlərinə həsr etdiyi abidələrdə də əldə etdiyi bədii-texniki məziyyətləri onlarda tətbiq etməyə nail oldu.

## ƏDƏBİYYAT

1. Novruzova C. Heykəltəraşlığın növü və janrları. Azərbaycan gəncləri qəzeti 22 mart 1961. s. 3.
2. Novruzova C. Fuad Əbdürrəhmanov. Bakı, 2004, 86 s.
3. İbrahimov T. Fuad Əbdürrəhmanov, 1915-1971. Bakı: Sərvət, [Şərq-Qərb], 2013, 104 s.
4. Новрузова Д.Г. Скульптура Советского Азербайджана. Баку, 1979, 160 с.

***Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent.**
***Azərbaycan Dövlət Rəssamlıq Akademiyası***
***E-mail:Samir_qismetoglu@mail.ru***

**Samir Sadigov**

**MONUMENTS OF NIZAMI GANJAVI - WORKS OF THE SCULPTOR FUAD ABDURRAHMANOV**

The artistic heritage and poetic image of the outstanding Azerbaijani poet and thinker Nizami Ganjavi has been in the center of attention of all mankind for centuries. The anniversaries of the poet from Ganja have always been celebrated with great solemnity not only in Azerbaijan, but all over the world. A striking example of this is the celebration of his anniversary during the Second World War. This year has also been declared the Year of Nizami Ganjavi in Azerbaijan. The order of President Ilham Aliyev on declaring 2021 in Azerbaijan the Year of Nizami Ganjavi conditioned and actualized the appeal to the poet, his work and poetic image. From this point of view, the study of the monuments of Nizami Ganjavi in the article from the point of view of monumental sculpture can be considered very relevant and timely.

**Keywords**: *Nizami Ganjavi, sculpture, literary, monumental, image, plastic.*

**Самир Садыгов**

**ПАМЯТНИК НИЗАМИ ГЯНДЖЕВИ - СКУЛЬПТОРА ФУАДА АБДУРРАХМАНОВА**

Художественное наследие и поэтический образ выдающегося азербайджанского поэта и мыслителя Низами Гянджеви веками находится в центре внимания всего человечества. Юбилеи поэта из Гянджи поэта всегда отмечались с большой торжественностью не только в Азербайджане, но и во всем мире. Яркий тому пример - празднование его годовщины во время Второй мировой войны. Этот год также объявлен в Азербайджане «Годом Низами Гянджеви». Распоряжение президента Ильхама Алиева об объявлении 2021 года в Азербайджане «Годом Низами Гянджеви» обусловило и актуализировало обращение к поэту, его творчеству и поэтическому образу. С этой точки зрения изучение памятников Низами Гянджеви в статье с точки зрения монументальной скульптуры можно считать очень актуальным и своевременным.

**Ключевые слова:** *Низами Гянджеви, скульптура, литературный, монументальный, изображение, пластика.*

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma: İlkin variant 11.01.2021**
**Son variant 07.03.2021**